**İLAHƏ XANTƏMİROVA**[1]

# İSTİQLAL ZƏFƏRİNİN DASTANI VƏ MİRZƏBALA MƏHƏMMƏDZADƏ

***Açar sözlər:*** *Azərbaycan Cümhuriyyəti, 28 May, istiqlal, türk, M.Məhəmmədzadə, Bakı, 27 aprel*

Bu il Azərbaycan xalqı və müsəlman Şərqi tarixində bir sıra yenilikləri ilə dərin iz qoyan istiqlalımızın yüzillik yubileyini qeyd edirik. Tariximizin bu şərəfli dövrünün araşdırılması Sovet hakimiyyəti zamanında qadağan olunmuşdu. 71 il işğalı altında yaşadığımız Sovet hökuməti hər vəchlə Azərbaycan Cümhuriyyəti ilə bağlı olan həqiqətləri ört-basdır etməyə çalışmışdır. Bu illər ərzində Sovet Azərbaycanında yaşayan azərbaycanlıların bir çoxu tarixi gerçəklikdən məhrum qalaraq yaşasalar da, Azərbaycandan kənarda-Türkiyədə və müxtəlif Avropa ölkələrində yaşayan həmyerlilərimiz bu həqiqətin itib-batmaması üçün var gücləri ilə çalışmış, tarixi faktları yurddaşlarına çatdırmaq üçün müstəqillik tariximizi əks etdirən kitablar, qəzetlər və dərgilər yayınlatmışlar. Məhz bu yayınların sayəsindədir ki, Cümhuriyyət tarixini tamamilə yeni aspektdən öyrənir, qaranlıq məqamları işıqlandıra bilirik.

Sovet təqibindən qaçaraq fərqli ölkələrdə məskunlaşmış mühacir azərbaycanlılar mübarizələrini burada fərqli formada davam etdirmişlər. Sovet hakimiyyəti dövründə onlara şər atılaraq milli mücadilələri ləkələnməyə çalışılsa da bugün gerçəklər açıqlığa çıxmaqdadır. 1920-ci ildən sonra mühacirətdə çıxan nəşrlər əlimizə keçmiş və uzun zaman bizdən gizlədilən o tarix aşkara çıxarılmağa başlanmışdır. Cümhuriyyət dövrünü yeni baxışdan öyrənmək üçün tarixçilər tərəfindən geniş araşdırma tələb edən zəngin qaynağa malikik. Mühacirət dönəmində nəşr olunan hər bir qəzet, dərgi toplusu, mühacirlərin hər birinin həyatı və fəaliyyəti böyük bir tədqiqat mövzusudur desək yanılmarıq.

Bu baxımdan, Mirzəbala Məhəmmədzadə yaradıcılığı Cümhuriyyət tarixinin öyrənilməsində əvəzedilməz mənbədir. Fəaliyyətinin böyük bir hissəsi mühacirətlə, Azərbaycanın istiqlalı üçün mübarizəylə bağlı olsa da, Cümhuriyyət dövrü hadisələrinin iştirakçısı kimi dönəmin araşdırılmasında canlı tarix rolunu oynamışdır. M. Məhəmmədzadə bu hadisələrin canlı şahidi olduğundan Cümhuriyyət tarixinin onun əsərlərinə əsasən araşdırılması xüsusi aktuallıq kəsb edir. Mühacirət irsinin araşdırılmasına son dövrlərdə xüsusi maraq yaransa da, sırf Mirzəbala Məhəmmədzadə yaradıcılığı üzərində aparılan araşdırmaların sayı azlıq təşkil etməkdədir. Belə ki, bu mövzuda Dr. Əfqan Vəliyevin "Azerbaycan Siyasi Düşünce Tarihi ve Mirza Bala Mehmetzade" adlı magistr dissertasiya işi, 2014-cü ildə "Fikir və Əməl Böyüklərimiz" adlı kitabda ədəbiyyatşünas prof. Asif Rüstəmlinin "Mirzəbala Məmmədzadə" adlı araşdırması və bir neçə məqalələr xaricində çox az yazılara rast gəlirik. Bu yazılar da daha çox ümumi xarakter daşıyıb M. Məhəmmədzadənin həyatı və yaradıcılığı üzərində konkretləşib. Bu baxımdan Cümhuriyyət tarixində baş verən hadisələrə onun əsərlərinə görə yenidən baxmaq və analiz etmək mövzunun elmi yeniliyi kimi qəbul edilə bilər.

Məqalədə Azərbaycan Cümhuriyyətinin yaranmasından süqutuna qədər olan hadisələr Məhəmmədzadənin baxışlarına və fikirlərinə görə təhlil ediləcəkdir. Odur ki, araşdırmada indiyə qədər qəbul olunmuş fikirlərdən fərqli fikirlərə rast gəlmək mümkündür. Həmçinin, mühacirlər arasında fikir ayrılıqlarının mövcud olması da fərqli baxışların yaranmasına müəyyən qədər öz təsirini göstərmişdir.

Araşdırmamızın mənbə bazasına gəldikdə isə, Türkiyə, Almaniyada nəşr olunmuş "Azerbaycan", "Dergi", "İlham Kaynağı", "Yasamız", "Kafkasya", "Birleşik Kafkasya", "Kurtuluş" kimi dərgilərdən istifadə olunmuşdur.

Məqalə haqqında qısa bilgi verərkən onun adının da haradan qaynaqlandığını qeyd etmək lazımdır. "Azerbaycan" dərgisinin 6-cı sayında

[1] *Akdeniz Universitetinin (Türkiyə) doktorantı.*

*sına üzv olmuşdur. "Müsavat" partiyasında Bakı Komitəsi üzvülüyündən tutmuş, Rəsulzadə Məhəmməd Əmin bəydən sonra partiyanın liderliyi vəzifəsinə qədər yüksəlmişdir.*

*Mühacirətdəki mətbuata gəlincə, "Yeni Qafqasya", "Azeri-Türk", "Odlu Yurt", "İstiklal", "Kurtuluş", "Die Befreiung"(almanca), "Müsavat Parti Bülteni", ve "Azerbaycan" kimi dərgi və qəzetlərdə Rəsulzadədən sonra ən çox yazı yazan Mirzəbala olmuşdur.*

*Mirzəbala İstanbulda geniş yayılmış qəzetlər olan "Cumhuriyet" və "Milliyet" qəzetlərinə özəlliklə türk xalqları ilə bağlı qiymətli yazılar yazmışdır.*

*Siyasi yazılardan başqa elmi sahədə də fəaliyyəti olan Mirzəbala, İstanbulda nəşr olunan "Türk-İslam Ansiklopedisi" və "İslam Ansiklopedisi"nə bir çox mövzularda dəyərli yazılar yazmışdır.*

*Mirzəbala, eyni zamanda məhkum Türk ellərinin milli davası ilə əlaqəli mövzularda çoxlu sayda yazılar yazmaqla yanaşı, bu mövzularda yetərincə konfranslar da vermişdir.*

*Təxmini bir hesabla sayı 2000-ə qədər olan məqalələrində Mirzəbala bu ad və ləqəblərdən istifadə etmişdir: Mirza Bala, M.B. Mehmetzade, Nuhoğlu, Daşdemir, M.B., Ali Kutluk.*

*Mirzəbalanın kitab halında nəşr olunan başlıca əsərləri bunlardır: "Azerbaycan Misakı Millisi" (28 May İstiklal Beyannamesinin Tahlili-1927), "Ermeniler və İran" (1927), "Milli Azerbaycan Hareketi" (Milli Azerbaycan "Müsavat" Halk Fırkasi Tarihi-1938), "Azerbaycan Tarihinde Türk Albaniya" (1951-konferansı).*

*Bütün ömrünü milli ideala və millətin xidmətinə həsr edən ustadımızın bu acı ölümü ilə əlaqədar olaraq "Dergi" yazı ailəsi mərhumun həyat yoldaşına, əqidə yoldaşlarına və dostlarına baş sağlığı verib səbir diləyir (3, s.95).*

"Azərbaycan Cümhuriyyəti Türk aləmində və Müsəlman Şərqində ilk cümhuriyyət olması səbəbiylə, başlı-başına bir inqilab təşkil edirdi. Qərbi Avropa üsulunda demokratik prinsiplər üzərində qurulmuş və xalq hakimiyyətinin mövcud olduğu bu cümhuriyyət, hər şeydən öncə demokratik bir hərəkat olan milli kültür oyanışının məntiqli və təbii bir nəticəsi, yəni milli bir dövlət idi" (19, s. 5). Bu fikir M. Məhəmmədzadənin 1952-ci ildə "Azerbaycan" dərgisində yayınlanmış "Milli Kültür İnkilabı" adlı məqaləsindən bir parçadır. Yazar Cümhuriyyətin yaranmasını milli mədəni oyanışın məntiqi nəticəsi hesab edirdi. Bu oyanış XIX əsrdə Azərbaycanda maarifçiliyin yayılması porosesi ilə başlayıb, 1905-ci ildə özünün yüksək mübarizə nöqtəsinə yetişdi. Məlumdur ki, 1905-ci il hadisələrindən sonra türk xalqları bir çox sahələrdə azadlıq əldə etsələr də, bu uzun çəkməmiş, qısa müddətdən sonra onlara verilən hüquq və azadlıqlar yenidən məhdudlaşdırılmağa başlamışdır. Gələcəkdə bir dövlətə sahib olmaq üçün bu yolu keçmək zəruri olmuşdur. Bu mövzuya Məhəmmədzadənin bir çox məqalələrində rast gəlirik. O, "Yasamız" adlı dərgidə də bu məsələyə toxunaraq, 1905-1907-ci illər inqilabından sonra tədricən özünə gəlməyə başlayan imperiyanın milli hərəkatın mərkəz şəhərləri olan Bakı, Kazan, Baxçasarayda çıxışların qarşısını alaraq, türk milli hərəkatını boğmağa çalışdığını vurğulamışdır.

Yuxarıda da qeyd edildiyi kimi, 1905-ci ilin oktyabr ayından sonra verilən hüquq və azadlıqlar məhdudlaşdırılır, məktəblər bağlanılır, münəvvər zümrə sürgün olunurdu. Yaranmış vəziyyət Rusiya İmperiyasının devrilməsini istəyən inqilabçı-milliyətçilər zümrəsi yaradırdı. Bu zümrə Rus imperatorluğu çərçivəsində və qanun dairəsində millətimizin milli mədəniyyətini inkişaf etdirə biləcəyinə inanır və milli hərəkatın başında duran liberal zümrənin yerinə keçərək inqilabçı bir taktika ilə fəaliyyətə başlayırdı (9, s. 12). Mirzəbala Məhəmmədzadəyə görə, "milli dövlət", "milli dövlət şüuru" bu dönəmdə yaranmış və "milli istiqlalına malik olmayan bir millətin milli kültürünü və mövcudiyyətini mühafizə etməyi mümkün deyil" şüarı Rusiya inqilabı ərəfəsində Qafqaz müsəlmanları və Rusya türklərinin 1917-ci ilin mart-aprel aylarında keçirilən qurultaylarında meydana atılmışdır (19, s. 6).

1905-ci ildən bəhs edərkən Azərbaycan bayrağı ideyasının yaranması fikrinin üzərində dayanmaq vacibdir. Məlumdur ki, əsası Əli bəy Hüseynzadə tərəfindən məhz 1905-ci ildə qoyulan bu fikir daha sonra kiçik dəyişikliklə bayrağımızın meydana gəlməsinin təməli olmuşdur. Bu kiçik dəyişiklik dediyimiz rənglərin sıralanmasında özünü göstərmişdir. 1918-il 9 noyabda dövlət bayrağı haqqında verilən qərarla üç rəngli bayraq Azərbaycan bayrağı kimi qəbul olunmuşdur. Göy, qırmızı, yaşıl, yəni türkləşmək, müasirləşmək, və islamlaşmaq kimi qəbul edilən fikir ilk dəfə Əli bəy Hüseynzadə tərəfindən türkləşmək, islamlaşmaq və müasirləşmək şəklində ortaya atılmışdır. Göründüyü kimi, müasirləşmək və islamlaşmaq fikirlərində yerdəyişikliyi edilmişdir. Bununla bağlı M. Məhəmmədzadənin açıqlamaları bu fikrə aydınlıq gətirmək üçün faydalı ola bilər. Müəllif haqlı olaraq qeyd edir ki, "Əkinçi" qəzetindən tutmuş "Açıq söz" qəzetinə qədər, yəni 1875-ci ildən 1915-ci ilə qədər bütün qəzet və dərgilərdə türk əvəzinə "müsəlman qəzeti", "müsəlman məcmuası" və ya "Qafqaz müsəlmanları", "Müsəlman Xeyriyyə Cəmiyyəti" ifadələri işlədilmişdir. Hətta müəllif çox maraqlı bir məsələyə toxunaraq qeyd edirdi ki, İslam-İran kültür nüfuzuna qarşı üsyan edən Mirzə Fətəli Axundzadə belə əsərlərini türkcə, türklər üçün və türk olduğunu yazdığı halda, bizə "Qafqaz müsəlmanları" adını verirdi (8, s. 7). Eyni zamanda Mirzə Fətəli Axundzadə və Həsən bəy Zərdabi Avropa mədəniyyətinin alınmasını şüar edir və bu mədəniyyətin türklər üçün və türk dilində alınmasına israr edirdilər. Lakin məlumdur ki, avropalaşma fikri cəmiyyətin bütün kəsimləri tərəfindən eyni cür qəbul olunmurdu. Uzun zaman ruslara qarşı mübarizənin əsas aparıcı qüvvəsini təşkil edən köhnə nəsil, "cədidçilər" adlandırılan yeni nəslə qarşı çıxırdılar, eyni zamanda avropalaşmağı ruslaşma mənasında anlayan və ya mədəni olmaq üçün ruslaşmağı zəruri görən bir zümrə yaranırdı. Bu da türkləşmə yolunda problemlərin yaranmasına səbəb olurdu. "Əxlaqi bir düstur və fəlsəfi bir doktrin olaraq İslam dinini dünya işləri ilə qarışdıran cahil üləmanın əlindən almaq və Avropalaşmağı da Ruslaşdırma vasitəsi olaraq istifadə edənlərin inhisarından çıxarıb millətin malı etmək lazım idi. 1905-ci ildən sonra qüvvətlənən Azərbaycan Türk millətçiliyi ilk iş olaraq bu məsələni həll etdi. Millətçilik, can çəkişən sxolastik Ərəb və İran mədəni nizamlarını və onların yerinə qoyulmağa çalışılan ibtidai Rus mədəni nüfuzunu yıxaraq, modern türk millətçiliyinin zəfərini əldə etmişdir" (8, s. 8). Odur ki, rənglərin yerinin dəyişilməsi təsadüf olmamalıdır. Cümhuriyyətin qurucuları bir dövlətin mövcud olması üçün ilk növbədə müasirləşməyi əsas olaraq görürdülər. İslamlaşmaq bir müsəlman xalqı üçün vacib amillərdən idi. Lakin bundan daha öndə dövr ilə ayaqlaşmaq, müasir Avropanın yeniliklərindən faydalanmaq dururdu. Hətta bu fikirlə bağlı Nağı Keykurun (Şeyxzamanlı) xatirələrində maraqlı bir hadisəni qeyd edir. Bildirir ki, ruhanilər Fətəli xan Xoyskidən hökumətdə təmsil olunmaq üçün yer istədikdə, o, bu fikrə qəti olaraq etiraz etmiş, Osmanlı dövlətində bu sistemin mövcud olduğunu bildirdikdə isə, onların ən önəmli çatışmazlıqlarından birinin də bu məsələ olduğunu söyləmişdir (23, s. 104). Bu kiçik xatirədə də qeyd olunduğu kimi, 1918-ci ildə yaranmış Azərbaycan Cümhuriyyəti bütün əsasları ilə müasirliyi, Avropa demokratiyasını qarşısına məqsəd qoyaraq, dinin mənəvi bir varlıq olduğunu bildirir və siyasətdən uzaq tutmağa çalışırdı.

1918-ci ilin may ayında gürcülərin Cənubi Qafqaz Demokratik Federativ Respublikası tərkibindən çıxması ilə Seymin Azərbaycan fraksiyası özünü Milli Şura adlandıraraq Azərbaycanın istiqlaliyyətini elan etdi. Bundan sonra dərhal görüləcək olan iş Azərbaycan Cümhuriyyəti üçün konstitusiya rolunu oynayacaq İstiqlal Bəyannaməsinin elan edilməsi oldu. Altı maddədən ibarət olan bu İstiqlal Bəyannaməsi Azərbaycan Cümhuriyyətinin əsaslarını, quruluş şəklini müəyyən edirdi. Mirzəbala Məhəmmədzadənin "İstiqlal Bəyannaməsi"nin təhlilinə aid bir neçə məqaləsi qarşımıza çıxmaqdadır. Bunlardan biri "Azerbaycan" dərgisində yayınlanan "İstiklal Beyannamesi" adlı bir məqalədir. "İstiqlal Bəyannaməsi" anlayışına müəllifin baxışını tam olaraq əks etdirmək üçün məqalənin ilk hissəsini olduğu kimi təqdim edirik: "28 may 1918-ci ildə Azərbaycan türklüyünün ümumi rəyinə və milli iradəsinə tərcüman olan Azərbaycan Milli Şurası tərəfindən elan edilən Azərbaycan istiqlalı tarixi bir vəsiqə olaraq ictimaiyyətə elan edilmişdir. İstiqlal Bəyannaməsi

adını daşıyan bu tarixi vəsiqənin siyasi, hüquqi və mədəni qiyməti Türk dünyası və Müsəlman Şərqi üçün Amerika İstiqlal Bəyannaməsi, Fransa Hukuk-i Beşer Bəyannaməsi, hətta zamanımızın "İnsan Haqları Bəyannaməsi" qədər mühim idi. Orta Çağ dövrünü aşmamış, milliyyət və demokratiya dövrünə girməmiş olan Müsəlman Şərqində bu bəyannamə özündə əks etdirdiyi yüksək bəşəri prinsipləri ilə, sözün tam mənası ilə bir inqilab demək idi" (11, s. 3).

Adıçəkilən məqalədə müəllif günümüz üçün də aktual olan bir neçə məsələyə toxunmuşdur. Bugün tarixçilər arasında 1918-ci ildə elan edilmiş dövlətin adının Azərbaycan Cümhuriyyəti və ya Azərbaycan Xalq Cümhuriyyəti kimi işlədilməsi ilə bağlı təzadlı fikirlər mövcuddur. İstiqlal Bəyannaməsinin ikinci maddəsi – "Müstəqil Azərbaycan dövlətinin şəkli idarəsi Xalq Cümhuriyyəti olaraq təqərrür ediyor" (1, s. 344), şəklində olmuşdur. Bu maddə ilə hakimiyyətin xalqa məxsus olması, yeni yaranan dövlətin demokratik əsaslar üzərində qurulması xüsusi vurğulanırdı. "İstiqlal Bəyannaməsi"nin digər maddələrində də dövlətin rəsmi adı Azərbaycan Xalq Cümhuriyyəti şəklində verilməkdədir. Lakin, hökumətin qəbul etdiyi rəsmi sənədlərdə dövlətin adının sadəcə Azərbaycan Cümhuriyyəti kimi qeyd olunduğunu görürük. Xalq Cümhuriyyəti məsələsinə Mirzəbala Məhəmmədzadə də adı çəkilən məqaləsində diqqət etmişdir. "Cümhuriyyət, dövlət idarə şəklini mütləqiyyətdən və məşruti səltənətdən ayırmağa yetərdisə də, İstiqlal Bəyannaməsi bunu yetərli görməmişdir. Xalq Cümhuriyyəti bütün Cümhuriyyət şəkilləri arasında milli iradəni təmsil edən ən demokratik bir şəkil olaraq qəbul edilmişdir (11, s. 3). Bu demokratik cümhuriyyət bir sülalə, sinif və ya zümrənin haqq və davası şəklində deyil, milli mədəni bir inkişafın təbii nəticəsi olaraq ortaya çıxmışdı. Azərbaycan Milli Şurasının elan etdiyi "İstiqlal Bəyannaməsi" də qərb demokratizmindən ilham və qüvvət alaraq elan edilmişdi (21, s.12).

Bununla eyni zamanda müəllif, "İstiqlal Bəyannaməsi"nin dördüncü və beşinci maddələrinə də toxunaraq Azərbaycan Xalq Cümhuriyyəti daxilində yaşayan bütün əhalinin millət, cins, məzhəb, sinif, vəzifə fərqi qoyulmadan bərabər hüquqlara malik olduğunu, eyni zamanda Azərbaycan dövləti sərhədləri daxilində yaşayan bütün millətlərin hökumətdə təmsili, öz dillərində təhsil alması, milli və dini müəssisələrə sahib olması kimi hüquqlarının olmasını yüksək qiymətləndirirdi. Dördüncü maddədən də göründüyü kimi, cinsiyyət fərqi də aradan götürülürdü ki, bu da qadınlarla kişilərin eyni hüquqlara malik olması demək idi. Qadın hüquqları M. Məhəmmədzadənin toxunduğu önəmli məsələlərdən biri olmuşdur. O, müsəlman Şərqində qadınların kişilərlə bərabər haqlara sahib olmasını bir inqilab hesab edirdi(11, s.5). "Azerbaycan" dərgisində onun "Kadınlara hürriyet" adlı bir məqaləsi nəşr olunmuşdur. Bu məqalə onun bu məsələyə baxışını, eyni zamanda Cümhuriyyət dönəmində qadınların cəmiyyətdə tutduğu mövqe haqqında təsəvvür yaratmağa imkan verir. XIX əsrdən başlayaraq maarifçilik hərəkatının genişlənməyə başlaması ilə qadınların cəmiyyədə rolunun artması, Qafqaz Müsəlmanları Qurultayında türk qadınlarının baş örtüsüz qurultayda iştirak etməsi, Bakıda ilk qızlar məktəbinin açılması kimi məsələlərdən bəhs etdikdən sonra müəllif, müstəqilliyimizin qazanılmasında qadınların da yardımının olduğunu bildirirdi. 7 dekabr 1918-ci ildən 27 aprel 1920-ci ilə qədər keçmiş qızlar məktəbinin binasında fəaliyyət göstərən, milli hakimiyyəti təmsil edən parlamentin katibinin qadın olduğunu, həmçinin parlament komissiyalarında çalışanların çoxunun da münəvvər Azərbaycan qadınlarından ibarət olduğunu qeyd edirdi. Eyni zamanda, tam hürriyyətini əldə etmiş qadınların Müəssislər Məclisində məbus olmaq üçün hazırlandığını də bu məqalədən oxuyuruq (15, s. 4).

Müəssislər Məclisindən bəhs etmişkən, bu mövzuda Mirzəbalanın yazmış olduğu məqalələri də incələmək gərəkdir. Məlumdur ki, Azərbaycan Cümhuriyyəti yarandıqdan sonra qanunvericilik səlahiyyətlərinə malik olan ali hakimiyyət orqanı Milli Şura idi. Milli Şura Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında duran müvəqqəti orqan idi (1, s. 344). "Azerbaycan" qəzetinin müxtəlif saylarında çıxmış "Azerbaycan Milli Şürası" və "Azerbaycan Parlamentosu" adlı





məqalələrdə Azərbaycanda Milli Şuradan Parlamentin çağırılmasına qədər gedən yol anlatılmışdır. Məhəmmədzadəyə görə, Milli Şura 28 May 1918-ci il tarixində Azərbaycanın müstəqil bir dövlət olduğunu elan edən və bu dövlətin ilk hökumətlərini quran milli hakimiyyət səlahiyyətinə malik olan ən yüksək müəssisə idi. Onun qəbul etdiyi qərarlar olmasaydı elan edilmiş olan istiqlal bir "Bəyannamə"dən ibarət olaraq qalacaqdı. Məlumdur ki, Milli Şura müvəqqəti xarakter daşıyaraq ən yaxın vaxtda Məbuslar Məclisinin çağırılması nəzərdə tutulmuşdu. Lakin 1918-ci ilin sentyabr ayına qədər davam edən İstiqlal savaşı, ardınca Mudros sazişi, daha sonra ingilislərin Bakıya gəlişi bu işi uzun bir zaman üçün təxirə salmış oldu. İngilislərin və onlarla eyni vaxtda Biçeraxovun dəstələrinin Bakıya gəlişi ilə yaranan bu böhranlı vəziyyət hakimiyyəti təmsil edən Milli Şuranın fəaliyyətinin durdurulmasındakı xəta bütün açıqlığı ilə özünü biruzə verdi. Hökumət millətin iradəsini təmsil edən bir istinadgahdan məhrum qalmışdı. Bütün səlahiyyət və qüvvətini Milli Şuradan almış olan hökumət milli hakimiyyət qüvvətinin yenidən toplanmasını istədi. Noyabr ayında baş tutan bu toplantıda parlamentin çağırılması qərara alındı və 7 dekabr 1918-ci il tarixində Bakıda, vaxtilə Hacı Zeynalabdin Tağıyev tərəfindən inşa edilmiş olan Türk qız məktəbinin binasında Azərbaycan Parlamenti (Məbuslar Məclisi) açıldı (7, s.3). Mirzəbala Məhəmmədzadənin yazılarında Azərbaycanda ilk parlamentin açılması ilə bağlı, bu prosesdə baş verən hadisələrlə əlaqədar geniş bilgilər almaq mümkündür. Bundan əlavə onun hadisələrə özünəməxsus yanaşması və baxışı olmuş, olayları özünəuyğun şəkildə incələmişdir. "Azerbaycan Parlamentosu" məqaləsində Parlament haqqında maraqlı fikiləri yer almaqdadır. Məqalədə qeyd etdiyinə görə, Azərbaycan Parlamenti bütün məmləkəti, xalqın dövlət idarəsində iştirakını təmin edən "kiçik parlamentlər" vasitəsi ilə idari ademi merkeziyyet [Bir idari bölgüdəki parçaların -vilayət, bələdiyyə, kənd, müəyyən sahələrdə öz-özlərini idarə səaliyyətləri. Bir yerə bağlı olmamaq, bir yerdən idarə olunmamaq -*İ.X*] halında idarə etmək istəmişdi. Kiçik parlamentlər dedikdə, şəhər işlərinə baxan bələdiyyələrlə vilayət işlərinə baxan məclislərin kiçik bir parlament halına gətirilməsi və ictimai xidmətlərin mərkəzlə bunlar arasında bölünməsi nəzərdə tutulurdu. Bu yolla parlament geniş xalq kütləsinin məmləkətin idarəsindəki iştirakını təmin etmək istəyirdi (7, s. 4).

Azərbaycan Cümhuriyyətinə gedən yolda baş vermiş tarixi əhəmiyyətli hadisələrdən biri də Bakının qurtuluşu məsələsidir. Azərbaycan Cümhuriyyətinə aid bir sıra digər məsələlər kimi bu məsələ də müəllif tərəfindən geniş şəkildə şərh olunmuşdur. Mövzu Azərbaycan tarixşünaslığında da geniş şəkildə işlənilmişdir. Xüsusilə, son dövrlərdə bu istiqamətdə tarixçilərimizin zəngin araşdırmaları yayınlanmaqdadır. Mövzu ilə əlaqəli Məhəmmədzadənin də araşdırmalarında təxmini olaraq eyni fikirlərlə qarşılaşırıq.

Yuxarıda qeyd etdiyimiz kimi, müəlllifin mövzu ilə əlaqədar müxtəlif dərgilərdə nəşr olunmuş məqalələri əlimizdədir. "Kurtuluş" dərgisində çap olunmuş "Fesli Konak" adlı məqaləsi "Daş-Demir" imzası altında yazılmışdır. Burada Sovet dövründə nəşr olunan "Fesli Konak" adlı bir roman təhlil və tənqid olunmuşdur. M.Məhəmmədzadə məqaləni təhlil edərkən bir sıra mələlərə toxunmuş, "Türkiyə ordusunun məzalim törədən, iki qardaş millət olan ermənilərlə türkləri bir-birlərinə qırdıran" bir ordu olması kimi yalanlar qarşılığında, türk ordusunun Bakıya gəlişini 31 Mart soyqırımı ilə qarşılaşdırmışdır. "Rus uşağı" adlandırdığı yazar İsmayıl Hafizi 31 Mart hadisələrini görməməkdə ya da görməzlikdən gəlməkdə günahlandırmışdır. Bu olaylar zamanı bolşeviklər daşnaklarla birləşərək "Böyük Ermənistan" vədi qarşılığında Azərbaycanı qana boyamağa başlamışlar. İsmayıl Hafizin qardaş dediyi Şaumyan, Avakyan, Arakelyan, Lalayev və başqaları "Azərbaycan yerinə bir məzarıstan verəcəklərini" elan edərək Bakıda və digər bölgələrdə qırğın törətmişlər. Bununla yetinməyərək Azərbaycan istiqlaliyyətini elan etdikdən sonra yaradılmış cümhuriyyəti boğmaq üçün Gəncə üzərinə hücuma keçərək, Şamaxı, Kürdəmir, Salyan, Muğan kimi ərazilərdə qətliamlar etmişlər (2, s. 114).

Məlumdur ki, məqsəd Azərbaycan milliyyətçilərinin müqavimət qüvvətlərini qıraraq Qafqazda sovet rejimi qurmaq idi. "Böyük Ermənistan" qurulması məsələsinə gəldikdə isə, bu bir yalandan başqa bir şey deyildi. I Dünya Savaşında çarlığın bir oyuncaq kimi istifadə etdiyi ermənilər indi də bolşeviklərə alət olmuşdular. Mirzəbala Məhəmmədzadənin də qeyd etdiyi kimi, Qafqaz hüdudlarından Aralıq Dənizinə qədər olan ərazidə yaranacaq olan "Böyük Ermənistan"ın mövcudluğunda da Sovetlər çıxarlarını güdür, qurulacaq bu dövlət vasitəsilə Yaxın Şərqə yayılmaq, Aralıq dənizi və Hind Okeanına çıxmaq, Böyük Pyotrun vəsiyyətnaməsini həyata keçirməyə çalışırdılar. Bu baxımdan, Məhəmmədzadə Azərbaycan milliyyətçilərinin təmsil etdiyi bu davanın yalnız Azərbaycanın deyil, bütün Türklərin, İslam Şərqinin davası olduğunu, 31 Mart günü Bakıda şəhid olan 14.000 [rəqəm məqalələlərin bəzilərində 12.000, bəzilərində 14.000 olaraq qarşımıza çıxmaqdadır-İ.X] türkün, bütün türklüyün və bütün Qafqazın ortaq hürriyyəti üçün can verdiyini qeyd edirdi (2, s. 13).

Qafqaz İslam Ordusu, Bakının qurtuluşu, Azərbaycan və Türkiyə kimi mövzular Məhəmmədzadə yaradıcılığında geniş təhlil olan mövzulardandır. "Azerbaycan", "Kurtuluş", "İlham Kaynağı" kimi dərgilərin müxtəlif illərə aid nömrələrində bu mövzu ilə bağlı araşdırmalara rast gəlirik. Qeyd etmək lazımdır ki, bu dərgilər müxtəlif illərdə nəşr olunsa da, müəllifin fikirlərində də bir dəyişiklik qarşımıza çıxmamaqdadır. Bəzən aralarında 10 il fərq olan dərgilərdə də eyni ifadələr qarşımıza çıxır.

Qafqaz İslam Ordusu Azərbaycana hansı şəraitdə köməyə gəldi, hansı işləri gördü, onların Azərbaycan gəlişinin nə kimi rolu oldu və s. kimi suallar M. Məhəmmədzadənin bu mövzu ilə bağlı məqalələrində əsas nöqtələrdir. "Kurtuluş" dərgisinin 1935-ci ildə çıxan 11-ci nömrəsində çap olunan Bakı zəfərinin 17-ci il dönümü münasibəti ilə yazılmış məqaləsində Rüştü bəy tərəfindən qələmə alınmış "Büyük harpte Bakü yollarında 5-nci Kafkas Piyade Fırkası" əsəri təhlil olunmuşdur. Burada Fevral inqilabından sonra Cənubi Qafqazın siyasi vəziyyətindən tutmuş türk ordusunun Bakıya gəlişi, hərəkatın planı, hazırlığı, hərbi sursatı, Bakının alınması zamanı və ərəfəsində baş verən döyüşdəki itkilər və s. tam təfərrüatı ilə qələmə alınmışdır (10, s. 296-303).

Türk ordusunun Bakıya gəlməsinin əsas səbəblərindən biri kimi Mirzəbala Azərbaycanın hərbi qüvvəyə malik olmadığını göstərir. Həqiqətən də, o dövrdə Azərbaycanın hərbi qüvvəsi əsasən "vəhşi diviziya"nın əsgərlərindən, Rus ordusunda yetişmiş olan məhdud sayda general və zabit qrupundan ibarət idi. Belə bir vəziyyətdə Azərbaycanda olan türkiyəli hərbi əsirlərin və bu zabit qrupunun yardımı ilə ordu hazırlığına cəhd edilmişdi. Eyni zamanda milli təşkilat iki mühim tədbirə də əl atmışdı. Bir tərəfdən Dünya Savaşına milyon yarım əsgər çıxarmış olan Rusiya türklərindən ibarət bir neçə alayın Azərbaycana gəlməsi üçün müraciət edilmişdi ki, Rusiyada anarxiyanın şiddətlənməsi və yolların pis vəziyyətdə olmasından dolayı bu alayın gəlməsi qeyri-mümkün olmuşdu. İkinci tədbir isə Osmanlı dövlətindən yardım alınması idi (22, s. 20). Məhz ikinci tədbir sayəsində Bakı düşmən işğalından azad edilmişdir. Türk qoşunlarının Bakını azad etməsi məsələsi əslində daha geniş araşdırma tələb etdiyindən bütün təfərrüatlara toxunmayaraq bəzi məsələləri işıqlandıracağıq. Məlumdur ki, Türk Ordusunun Bakıya dəvətində qarşıya qoyulan məqsədlərdən biri də Azərbaycanda ordunun qurulması idi. M. Məhəmmədzadə "Kafkasya İslam Ordusu" adlı məqaləsində qeyd edir ki, Qafqaz İslam Ordusu komandanı təyin olunmuş Nuru Paşa 4 iyun müqaviləsindən əvvəl, may ayının ortalarında bu məqsədlə Azərbaycana gəlmişdi. Üçüncü Ordu Komandanı Vehip Paşaya yazdığı məktubunda Azərbaycanda milli ordunun yaradılması üçün bütün imkanların və vəsaitin mövcud olduğunu, yalnız müəllim-zabit kadrlarına ehtiyac olduğunu vurğulamışdı. Bu zaman Gəncədə kiçik bir zabit məktəbi açılmışdısa da, İstiqlal Savaşından dolayı bu proses yarımçıq qalmışdı. Mirzəbala Məhəmmədzadə qeyd edir ki, Qafqaz İslam Ordusu onu əvəz edəcək bir Azərbaycan ordusu yaratmadan çəkilsə, siyasi və hərbi müvazinət alt-üst olub Qafqazda hər şey itirilmiş hesab olunacaq və Azərbaycanın müqəddəratı





təhlükəyə düşəcəkdi. Odur ki, Osmanlı hökuməti Bakı azad olunduqdan sonra türk ordusunu geri çağırsa da, 26 oktyabr 1918-cu ildə verdiyi bir qərarla Qafqaz və Azərbaycanda qalıb xidmət etmək istəyən türk əsgərlərinə izn verirdi. Nuru Paşa da bu qərara əsaslanaraq, Qafqaz İslam Ordusu komandanlığından istefa verib Azərbaycan ordusu komandanı vəzifəsini almışdı (16, s. 4). Lakin Mudros sazişi ilə bu plan həyata keçməmiş və türk əsgərləri Azərbaycanı tərk etməyə məcbur olmuşlardır.

Yuxarıda qeyd etdiyimiz kimi, türk ordusu burada olduğu müddətdə Gəncədə kiçik bir hərbi məktəb açılmışdı. Mirzəbala Məhəmmədzadə qeyd edirdi ki, 1919-cu il aprel ayında Səməd bəy Mehmandarlının komandanlığı altında Bakıya daxil olan Azərbaycan ordusunun zabitlərinin çoxu "Qafqaz İslam Ordusu"nun yardımı ilə Gəncədə təsis olunmuş həmin hərbi məktəbdən yetişənlər idi (16, s.14). Milli ordu Bakının rus-bolşevik dəstələrindən təmizlənməsinin ildönümündə Azərbaycanın hürriyyət və istiqlal üçün şəhid düşən qəhrəman Anadolu mehmetciklərinin məzarı üzərində ucaldılan abidənin açılış mərasimində iştirak etmişdi(22, s. 23). Göstərilən məqalədə fərqli bir fikir də diqqətimizi çəkir. Məqalədə Azərbaycan hökumətinin Bakıda türk şəhidləri şərəfinə abidə qoyması haqqında məlumata rast gəlirik. Eyni məlumat müəllifin "Kurtuluş" dərgisində çap olunmuş başqa bir məqaləsində də qarşımıza çıxmaqdadır. "Bakü Yollarında" adlı məqalədə türk əsgərlərinin Bakı uğrunda şəhid olmasından bəhs edildikdən sonra belə bir bilgi verilmişdir: "Otuz altı saatlıq meydan müharibəsinin baş verdiyi Bakı və Xəzərə hakim olan Çəmbərəkənd təpəsində, Anadolu Mehmetciklerine hələ ingilis işğalı dövründə əbədi bir şükran abidəsi qoyan Milli Azərbaycan Hökuməti də eyni hiss və imanla hərəkət etmişdir" (10, s. 302). Azərbaycan tarixşünaslığında da belə bir abidənin adı keçməkdədir. Lakin, indiyə qədər yazılmış kitablarda bu abidənin yalnız layihə şəklində olub kağız üzərində qaldığı, Azərbaycan Cümhuriyyətinin süqutu səbəbindən inşasının reallaşdırılmadığı haqqında məlumatlar var. M.Məhəmmədzadənin qeyd etdiyi fikir bu məsələnin üzərində bir daha çalışmanın vacibliyini göstərir. Bildirməliyik ki, bu yalnız Mirzəbala Məhəmmədzadə tərəfindən yazılmamışdır. Eyni məlumatla digər mühacir dərgilərində də qarşılaşırıq. Təəssüf ki, hal-hazırda bəhs edilən dövrün qaynaqlarını əldə etməyin mümkünsüzlüyü səbəbindən bu məqalədə məsələ haqqında dəqiq fikir söyləyə bilmirik.

Mövzu ilə əlaqəli qarşımıza çıxan məqalələrdən biri də "Azerbaycan" dərgisində çap olunan "Ağustos 1918" il adlı məqalədir. 1918-ci ilin avqust ayı Azərbaycan Cümhuriyyəti tarixində, xarici və daxili siyasətində bir sıra hadisələrlə yadda qalmışdır. "Sentrokaspi diktaturası"nın qurulması ilə başlayan ay 27 avqustda Rusiya ilə Almaniya arasında imzalanan anlaşma ilə bitmişdir ki, bu sazişin də bir maddəsi (14-cü maddə) Azərbaycan neftinin və ərazisinin paylaşılması əsas götürülmüşdü. Bundan 3 gün əvvəl, yəni 24 avqustda isə Türkiyə ilə Almaniya arasında imzalanan müqavilə ilə Osmanlı Ordusunun Köstəncə-Batum üzərindən dəniz yolu ilə Bakıya getməsinə icazə verilmişdi. Eyni zamanda 5 avqustda Qafqaz İslam Ordusunun Bakı üzərinə uğursuz yürüşünü də bu siyahıya aid edə bilərik. Qeyd edilən hadisələrlə bağlı Məhəmmədzadənin məqaləsindən kiçik bir hissəni tam olaraq diqqətə çatdırmaq lazımdır: "Gerçəktən də, Bakını qəsb edənlər ay yarım sonra təslim olmuş və Bakı üzərində Azərbaycan bayrağı yellənməyə başlamışdı. Bu işdə ingilislərin gəlməsi isə lehimizə müsbət rol oynamışdı. Çünki, əhəmiyyətsiz miqdarda olan ingilis qüvvətləri millətlərarası hüquq baxımından yeni çox mühim bir vəziyyəti ortaya qoymuşdu. Artıq Türkiyə ordusunun qarşısında Brest-Litovskidə barışmış olduqları bolşeviklər deyil, savaş halında olduqları ingilislər dururdu. Leninin hesabları yalnış çıxmışdı. Almaniya bu işə nəinki əngəl olmamaq, hətta Türkiyəyə yardım etməyə başlamışdı. O vaxta qədər Türkiyə ordusunun keçməsinə mane olan Gürcüstan dəmir yolları açılmış, Bakı cəbhəsində Batumdan yeni hərbi qüvvə gətirilmiş və Azərbaycanın milli vücudundan qoparılmış olan bu doğma yurd hürriyyətə qovuşmuşdu" (18, s. 542). Yuxarıda verilən məlumatlar bu ayın önəmini az da olsa ortaya qoymaqdadır. Mirzəbala Məhəmmədzadənin dili ilə desək, 1918-ci ilin

avqust ayı millətimizin müqəddərat və istiqlalını təyin etməsi baxımından son dərəcə mühümdir. Azərbaycanın müstəqil dövlət olub olmayacağı bu ayda bəlli olduğu kimi, bütün Qafqazın, hətta Türküstanın da qurtuluşa olan ümidi bu ayın sonuna doğru parlamağa başlamışdır. 28 mayda elan edilən istiqlalın və 15 sentyabr zəfərinin gerçəkləşməsi avqust hadisələrinin təbii nəticəsi idi (4, s. 3).

Cümhuriyyətdən bəhs edərkən Azərbaycanın böyük dövlətlər tərəfindən tanınması və millətlərarası münasibətlərdə yeri kimi mövzular xüsusi önəm daşımaqdadır. Məhəmmədzadə də yaradıcılığında bu mövzular üzərində işləmiş və öz baxışlarını sərgiləmişdir. Məlumdur ki, 30 may notası ilə Azərbaycan dünya ölkələrinə öz mövcudiyyəti haqqında məlumat vermişdi. Bunun ardınca ilk diplomatik müvəffəqiyyətimiz kimi dəyərləndirə biləcəyimiz müqavilə olan Batum müqaviləsi gəlməkdədir. Bu xarici dövlətlərlə bağlanılan ilk müqavilə idi. Ümumiyyətlə, mövcud olduğu iki il ərzində dünyanın aparıcı dövlətlərinin Azərbaycana olan münasibəti birmənalı olmamışdır. Beynəlxalq vəziyyət dəyişdikcə münasibət də dəyişmişdir. Buna misal olaraq, Almaniyanın Azərbaycana olan münasibətini göstərə bilərik. Məlumdur ki, bolşeviklər və Almaniya arasında imzalanan, 27 avqust sazişinin Qafqaza aid olan maddəsində Bakı nefti hədəfə alınmışdı. Almaniya Qafqazda Türkiyə ordusunun irəliləməsinə mane olaraq Bakı vilayətinin və Kür çayına qədər olan ərazilərin ruslarda qalmasına razı olurdu. Əvəzində isə Azərbaycanda çıxan neftin ¼-nə sahiblənəcəkdi. Bağdad dəmiryolunun möhtac olduğu petrolu təmin etmək üçün Almaniya Bakı nefti üzərində nəzarətə sahib olmalı idi (20, s. 7). Lakin məlum olduğu kimi bu sözləşmə baş tutmamış, bunun ardınca oluşan hadisələr nəticəsində Bakı azad olunmuş, ingilislər, rus və ermənilər ölkədən getmişlər. Bu yeni vəziyyət qarşısında Almaniya da siyasətini dəyişmiş və 23 sentyabr 1918-ci ildə Tələt Paşa ilə Almaniya hökuməti arasında gizli protokol imzalanmışdı. Bu protokola görə, hər iki tərəf Azərbaycanın istiqlalını tanıyır və Osmanlı qüvvətlərinin Qafqazdan tamamilə çəkilməsi şərti ilə Almaniya Azərbaycan istiqlalının Rusiya tərəfindən tanınmasını təmin edəcəyinə söz verirdi (12, s. 11).

Azərbaycan Cümhuriyyətinin 12 yanvar 1920-ci il tarixində de-fakto tanınması məsələsi M. Məhəmmədzadə əsərlərində təfərrüatı ilə incələnmişdir. Məlumdur ki, Azərbaycan nümayəndə heyəti bu nailiyyəti asanlıqla əldə etməmiş, bunun üçün beynəlxalq konfranslarda iştirak edərək Azərbaycanın maraqlarını təmin etməli olmuşdur. Böyük dövlətlər keçmiş Rusiya imperiyasının dağılması nəticəsində yaranan dövlətləri qəbul etmək istəmirdilər. Mirzəbala Məhəmmədzadənin bu məsələyə yanaşmasını aşağıdakı parçadan görə bilirik: o vaxta qədər millətlər zindanı Rusiya imperiyasının Kolçak və Denikin kimi "bəyaz" generallar ətrafında yenidən xortlayacağı ümidi hakim idi. Böyük çoxluğu rus olmayan əsir millətlərin təşkil etdiyi bu zindanın dağılması üzərində qütb ətrafından Qara dənizə və buradan Altaylara qədər qurulmuş olan milli dövlətlər real qəbul olunmurdu. Yalnız Qərbi Avropanın demokratik və mədəni prinsipləri üzərində qurulmuş bu milli dövlətlər deyil, eyni zamanda qoca Rus inqilabını doğuran tarixi sosial-siyasi amillər də inkar edilərək, Şərqi Avropada cərəyan edən hadisələr alman intriqasının bir məhsulu, Qafqazdakı milli istiqlal hərəkatları isə Osmanlı icadı olaraq qəbul edilmək istənilirdi. Bunun nəticəsidir ki, Alman-Osmanlı blokunun məğlubiyyətindən sonra qalib dövlətlər bu məmləkəti "Ağ Rusiya"nın ayrılmaz bir parçası olaraq qəbul etdiklərini rəsmən bildirdilər. Lakin 1919-cu ilin sonlarına doğru Ağ Rus hərəkatı tamamilə iflas etmiş, qızıllar-bolşeviklər Rusiyada vəziyyətə hakim olmağa başlamışdılar. Belə bir vəziyyət qalib dövlətlərin bütün plan və təsəvvürlərini alt-üst etmişdi. Onlar bolşevikləri Rusiyanın həqiqi hakimi kimi tanımaq fikrindən tam olaraq uzaq idilər. Yaranmış vəziyyətdə Rusiya adına söz deyəcək kimsə mövcud deyil, sadəcə rus olmayan millətlərin qurduqları yeni milli dövlətlər var idi. Şimaldan cənuba, qərbdən şərqə doğru qan və ataş içində qıvranan Rusiyanı bir zəncir kimi saran bu yeni milli dövlətlərin geo-politik vəziyyətləri və hüdudsuz iqtisadi imkanları Rusiyadan tamamilə ayrı, müstəqil dövlət olaraq yaşamalarına təminat verirdi.





Üstəlik, bu dövlətlər Rusiyanın daxili müharibəsinə tərəfsiz qalmaq əzmində idilər. Bu səbəbdən dolayı, ağların və qızılların ittifaq təklifini rədd edir, rus faciəsinin daha uzun müddət davam edəcəyinə inanır və buna qarşılıq sağlam bir kordon olaraq milli dövlətlərin istiqlalını tanımağı və onlara maddi dəstək verməyi daha asan hesab edirdilər (13, s. 8).

Lakin müttəfiq dövlətlərin bu planları baş tutmamış, Qızıl Rusiya özünü toparlayaraq yaranmış milli dövlətlərin müstəqilliklərini birbirinin ardınca əllərindən almışdır. Belə bir vəziyyətdə heç bir şey etməyən böyük dövlətlər izləyici qalmaqla kifayətlənmişlər. Bolşeviklər Şimali Qafqazın istiqlalını rəsmən tanımalarına baxmayaraq, ilk olaraq oranı işğal etmiş, ardınca isə Azərbaycan hüdudlarına dayanmışlardır. Qanla əldə edilən bu istila sonralar "inqilab" deyə bayram ediləcəkdi. Halbuki, bu inqilab Azərbaycan kəndlisi, fəhləsi, xalqı və ziyalıları tərəfindən əldə silahla qarşılanmış, Qarabağda, Gəncədə, Şəkidə, Lənkəranda, Qubada, Kürdəmirdə aylarla, hətta illərlə davam edən müqavimət əsnasında minlərlə şəhid verilmişdir (17, s. 3).

27 aprel işğalı ilə bağlı çox sayda araşdırmalar aparılmışdır. M. Məhəmmədzadənin də bu mövzu ilə bağlı çoxlu sayda yazıları vardır. Bunların içindın "Kurtuluş" dərgisini 18-ci nömrəsində çıxan bir məqalə xüsusilə maraq doğurur. Burada müəllif iki böyük faciəni – 31 mart və 27 aprel hadisələrini qarşılaşdırır və nəticə olaraq 27 aprel işğalının daha böyük bir faciə olduğu qənaitinə gəlir: "31 mart faciəmiz 27 aprel hadisəsi yanında kölgədə qalar. 31 mart dəhşətli və qanlı olmaqla bərabər yalnız Bakı miqyasında cərəyan edir və məqsədi daha başlanğıcda ikən gənc Azərbaycan istiqlal hərəkatını boğmaqdır. 27 aprel isə artıq dövlət halında qurulmuş olan milli hərəkatımızı yenidən əsarətə çevirmək üçün bütün məmləkət miqyasında həyata keçirilən çirkin və alçaq təcavüzün tarixidir. 31 mart bizə xilas olmaq imkanı verməmək üçün həyata keçirilən cinayətdir. 27 apreldə isə artıq qurtulmuş olan bir millətin qurduğu Hürriyyət və İstiqlal binası yerlə yeksan edilmişdir. 27 aprelin 31 martdan qara olmasının səbəbi bir də ondadır ki, düşmənlər 31 martdan gözlədikləri qayəyə yetişməmişlər, milli hərəkat 28 mayda dövlət halına gələrək aldığı qardaş yardımı ilə xain və alçaq düşmənləri Xəzərə töküb məhv etmişdi. 27 apreldə isə xain düşmən əldə etdiyi yeni müttəfiqlər sayəsində alçaq əməllərinə nail ola bilmişdi. 27 apreldə hürriyyət, milliyyət və istiqlal kimi yüksək, insani prinsiplər vəhşicəsinə rus çarıqları altında çeynənmiş, Haqqın qüvvətinə qarşı, qüvvətin haqqı ortaya çıxmışdır" (24, s. 505).

Mirzəbala Məhəmmədzadənin Azərbaycan istiqlalının xüsusi günlərinə həsr olunmuş bütün məqalələrində gələcəkdə istilanın bitəcəyinə, azadlığımızın yenidən qazanılacağına bir inam var. Özünün də qeyd etdiyi kimi: "Əsarət rejimi Rusiyada olduğu kimi, daxildə bir kommunist inqilabının nəticəsi olmayıb Qızıl Rusiyanın orduları tərəfindən işğalın nəticəsidir. Odur ki, Azərbaycana rus süngüləri ucunda gələn kommunizm o süngülər sayəsində tutuna bilmişdir. Azərbaycandan rusların çəkilməsi ilə kommunizm də bitəcəkdir" (5, s. 11).

Daha bir məqaləsində, Azərbaycan Cümhuriyyətinin istiqlalını əldə etməsinin və yenidən həyata qovuşmasının demokratiyanın zəfəri baxımından böyük bir hadisə təşkil edəcəyini vurğulamışdır (21, s. 14). Həqiqətən də, mühacirətdə olan insanların mübarizəsi gec də olsa öz nəticəsini göstərmiş, Mirzəbalanın da qeyd etdiyi kimi kommunizmin və imperiyanın sonu gəlmişdir. Bu baxımdan, bütün bu əsərlər, tarixi qaynaqlar bizə Azərbaycan Cümhuriyyəti tarixini daha yeni aspektdən və dərindən öyrənməyə yardım etdiyi kimi, baş verən tarixi hadisələrin bir daha təkrarlanmasına imkan verməmək üçün yol göstərir.

**İstifadə olunmuş ədəbiyyatın siyahısı:**

1. Azərbaycan tarixi: 7 cilddə, V c., Bakı, Elm, 2008. 693s.

2. Daş-Demir. Fesli Konak // Kurtuluş, Yıl 2, sayı 4, Münhen, 1935. s. 113-115.

3. Mirza Bala (1898-1959) // Dergi, Yıl 5, sayı 15, Münih, 1959. s. 95-97.

4. Mirza Bala. Ağustos 1918 // Azerbaycan, Yıl 2, sayı 5(17), Ankara, 1953. s. 3-5.

5. Mirza Bala. Azerbaycan İstiklal Hakkı Feda edilemez // Kafkasya, Yıl 2, sayı16, 1952. s. 10-13.

6. Mirza Bala. Azerbaycan Milli Şürası // Azerbaycan, Yıl 1, sayı 4, Ankara, 1952. s.4-6.

7. Mirza Bala. Azerbaycan Parlamentosu // Azerbaycan, Yıl 1, sayı 9, Ankara, 1952. s.2-4.

8. Mirza Bala. Bayraklaşan Bir Şiar // Azerbaycan, Yıl 1, sayı 2, Ankara, 1952. s.7-9.

9. M.B. Baku Katliamının 20-nci yıl dönümü // Yasamız, Yıl 1, sayı 1, Berlin, 1938. s. 12-13.

10. Mirza Bala. Bakü yollarında // Kurtuluş, Yıl 2, sayı 11, Münhen, 1935, s. 296-303.

11. Mirza Bala. İstiklal Beyannamesi // Azerbaycan, Yıl 1, sayı 2(14), Ankara, 1953. s.3-5.

12. Mirza Bala, İstiklalin Diplomasi Cephesi// Azerbaycan, Yıl 3, sayı 2-3 (26-27), Ankara, 1954. s. 7-11.

13. Mirza Bala, İstiklalımızın tanınması // Azerbaycan, Yıl 4, sayı 10-11 (34-35), Ankara, 1954. s. 8-9.

14. Mirza Bala. İstiklal Zaferinin Destanı // Azerbaycan, Yıl 2, sayı 6(18), Ankara, 1953. s.3-4.

15. Mirza Bala. Kadınlara Hürriyet // Azerbaycan, Yıl 3, sayı 12 (24), Ankara, 1954. s. 2-4.

16. Mirza Bala. Kafkasya İslam Ordusu // Azerbaycan, Yıl 1, sayı 4-5, Ankara, 1954. s. 3-14.

17. Mirza Bala. Kızıl Rus İstilası // Azerbaycan, Yıl 3, sayı 1 (25), Ankara, 1954. s. 3-4.

18. M.B. Mehmetzade. Lenin"in 7.7.1918 tarili telyazısı münasibetile // Kurtuluş, Yıl 3, sayı 19, Münhen, 1936. s. 540-543.

19. Mirza Bala. Milli Kültür İnkilabı // Azerbaycan, Yıl 1, sayı 12, Ankara, 1953. s.5-7.

20. Mirza Bala. Milletlerarası münasibetlerde Azerbaycan // İlham Kaynağı, Yıl 1, sayı 1, Berlin, 1938. s. 6-10.

21. Mirza Bala. Müstakil Azerbaycan // Birleşik Kafkasya, Yıl 3, sayı 5(22), Münhen, 1853. s. 12-14.

22. M.B. Mehmetzade. Türk Ordusunun Azerbaycanda kalması meselesi // İlham Kaynağı, Yıl 1, sayı 1, Münhen, 1938. s. 20-23.

23. Nağı Şeyxzamanlı. Azərbaycan İstiqlal Mücadiləsi Xatirələri. Bakı, 1997. 158 s.

24. Nuh-Oğlu. 27 Nisan // Kurtuluş, Yıl 3, sayı 18, Münhen, 1936. s. 505-506.


## Summary

**Ilaha Khantamirova**

### The epos of independence victory and Mirza Bala Mahammadzada

***Key words:*** *Azerbaijan Republic, 28 May, independence, turk, M.B. Mahammadzada, Baku, 27 April*

Azerbaijan declared its independence on democratic basis for the first time 100 years ago. Although, it was existed just for two years it was remembered by its novelties. Historical truth was hiden or were given us in distortion form. Neverthless, two years independences period was not deleted from the memory of the people and specially, the collapse of USSR was the reason for the discover of truth. The main hardness was on the shoulders of emigrants. Emigrant life of 20s years of XX century gifted us numbers of magazines and newspapers, which by this way the hidden truth of long time was revealed. From this point of view, Azerbaijanian emigrants have played an important role on the researching of the history of Azerbaijan Democratic Republic. An article was written on the basis of researches of Mirza Bala Mahammadzada, one of these emigrants. Special essential events have been surveyed on the basis of his point of view. Because of novelity of the sources whis article has special importance.





## Резюме

**Илаха Хантамирова**

### Эпос победы независимости и Мирза Бала Мамедзаде

***Ключевые слова:*** *Азербайджанская Республика, 28 Май, независимость, тюрок, М.Б. Мамедзаде, Баку, 27 апрель*

100 лет назад впервые Азербайджан, ссылаясь на демократичекие основы, обьявил о своей независимости. Несмотря на то, что государство просуществовало два года, оно многими новшествами наложил печать на нашу историю. В течение 70 лет в составе СССР от нас скрывались исторические факты или же полностью преподносились в искаженном виде. Тем не менее, двухлетний период независимости не стерся из памяти народа, в частности, вся истина была обнародована после распада СССР. В этом деле особая тяжесть легла на плечи мигрантов, живущих за пределами Азербайджана. Благодаря росту числа мигрантов в 20-х годах XX века, было создано множество произведений, печатались журналы и газеты, которые выявляли факты, скрывающиеся долгое время. С этой точки зрения мигранты сыграли особую роль в изучении истории Азербайджанской Республики. Наша статья была написана на основе произведений одного из общественно-политического деятеля Мирза Бала Мамедзаде. Важные события, произошедшие в истории Азербайджанской Республики, были проанализированы на основе его взглядов.